# X INTERNATIONAL MUSIC FESTIVAL SHARQ TARONALARI XALQARO MUSIQA FESTIVALI

## 25-30.08.2015, SAMARQAND

# DÜNYANIN "ŞƏRQ TƏRANƏLƏRİ"...

## Bu Beynəlxalq Musiqi Festivalının məkanı - Səmərqənd

**"Avqustun 25-30 tarixlərində Özbəkistanın Səmərqənd şəhərində növbəti 10-cu "Şərq təranələri" – Beynəlxalq Musiqi Festivalı keçirildi. İki ildən bir düzənlənən və özündə dünya musiqi ənənələrini sərgiləyən bu əsrarəngiz musiqi bayramına bu dəfə 67 ölkədən rekord sayda iştirakçı – etnik musiqi ifaçıları, bəstəkarlar, musiqişünas-alimlər, prodüserlər təşrif buyurmuşdu**

Bu böyük tədbir-törənin "10-cu"luğu möhtəşəmliyilə daim heyrət doğuran Festivala bu dəfə xüsusi bir "yubileylik" ovqatı da qatmışdı. Müxtəlif illərdə ali mükafata layiq görülmüş ifaçıların – bu sıradan ilk Qran-Pri mükafatçısı, Azərbaycanın Xalq artisti Simarə İmanovanın Festivala fəxri qonaq qismində dəvət olunması da bununla bağlı idi. Özündə Şərq tarixinin şərəfli səhifəsini – Əmir Teymur imperiyasının əzəmətini yaşadan Səmərqənd şəhərinin daha da abadlaşdırılıb-gözəlləşdirilməsi, başdan-başa əlvan gül-çiçəklərə qərq edilməsi dünyanın dördbir tərəfindən gəlmiş festival iştirakçılarını təsirləndirməyə bilməzdi. Bu gözəllik hamıya tarixə "tarixi dialoq" kimi düşmüş bir söhbəti xatırlatmışdı: "İranı fəth edəndən sonra şair Hafizi hüzuruna çağırtdıran Teymurləng soruşur:

– Mən çox səltənətlər fəth etdim ki, Buxara və Səmərqəndi tikdirib şöhrətləndirdim ki, sənsə yazırsan ki, sən, onları gözəlin bir xalına bağışlayacaqsan?

Hafiz:

– Elə ona görə də bu günə qalmışam, qibleyi-aləm, – deyir.

– ...Azərbaycan nümayəndə heyətinin formalaşdırılması bu dəfə Azərbaycan Milli Konservatoriyasına həvalə edilmişdi. Heyətin tərkibinə Konservatoriyada çalışan tanınmış musiqi xadimləri daxil idi. Milli Konservatoriyanın dosentləri, əməkdar artistlər





Təyyar Bayramov və "Buta" muğam qrupu Səmərqənd festivalında çıxışı zamanı

Elçin Həşimov (tar), Elnur Əhmədov (kamança), əməkdar artistlər – I Beynəlxalq Muğam Müsabiqəsinin Qran-Pri mükafatçısı Təyyar Bayramov, balabançı Şirzad Fətəliyev, nağara ifaçısı Kamran Kərimov – "Buta" muğam qrupunun üzvləri kimi Festivalın müsabiqə proqramında yer almışdılar. Nümayəndə heyətini rəhbəri Lalə Hüseynova (bu sətirlərin müəllifi - red.) Festival çərçivəsində keçirilən Beynəlxalq Elmi Konfransda məruzə ilə çıxış etdi. Konfransın işinə öz təşəbbüsü ilə Bakı Musiqi Akademiyasının professoru, əməkdar incəsənət xadimi Zümrüd Dadaşzadə də qatıldı.

Bilavasitə festival olaylarına keçməzdən öncə, bir müşahidəmizi vurğulamaq istərdik. Özbəkistanda Azərbaycan musiqisi çox sevilir: özbəklər istər muğam və xalq mahnılarımızı, istərsə də müasir estradamızı məmnuniyyətlə dinləyirlər. Bizlərə olan isti, mehriban münasibət hər addımbaşı duyulurdu. Bu səmimiyyətin nüvəsində etno qançəkənlik – təbii ki, tariximizin mədəniyyətimizin, musiqimizin, nəhayət, dilimizin müştərəklik kökləri də dayanır. Bizim sənətçilər isə öz çıxışları ilə onların bu məhəbbətini "səbirsizliklə gözləmələrini" adekvat cavablandırırlar.

**"Şərq taronaları" festivalı yarandığı gündən Azərbaycan ifaçıları ən çox mükafat alan ölkələr siyahısındadır. 1997-ci ildə keçirilən ilk festivalda məhz bizim ölkənin gənc nümayəndəsi – xanəndə Simarə İmanova Qran-Pri mükafatına layiq görüldü. 2001-ci ildə görkəmli xanəndəmiz Alim Qasımov I yeri qazandı. 2003-cü ildə Zabit Nəbizadə III yerə layiq görüldü. 2005-ci ildə isə Aygün Bəylər birinciliyi yenidən Azərbaycana qaytardı. Birincilik səadəti 2009-cu ildə Qoçaq Əsgərova da nəsib oldu. Müxtəlif illərdə xüsusi mükafatçılar sırasındakı – Nəzakət Teymurova, Arzu Əliyeva, Babək Niftəliyev və Elnarə Abdullayevanın adlarını da yaxşı xatırlayırıq...**



Soldan: Elmi konfransın iştirakçıları- Rustam Abdullayev (Özbəkistan), Zümrüd Dadaşzadə və Lalə Hüseynova (Azərbaycan)

İştirakçı ölkələrin coğrafi genişlik və rəngarəngliyinə rəğmən budəfəki "Şərq taronaları" festivalını "Dünya xalqlarının taronaları" da adlandırmaq olardı. Çünki budəfəki iştirakçılar arasında bir çox Qərb ölkələrilə bahəm Avstraliya, Amerika, Afrika, hətta Yeni Zelandiya və Madaqaskardan musiqiçilər vardı. Səmərqəndin möhtəşəm Registon meydanı bir həftə ərzində, sözün əsl mənasında, dünyanın ən müxtəlif, ən rəngarəng və yaxşı mənada fərqli musiqi ənənələrinin təcəssüm etdirildiyi unikal bir məkana çevrilmişdi. Hər festival günü 15–20 ölkənin kollektivi çıxış edirdi. Belə bir əlvanlıq mənzərəsində diqqət çəkib seçilmək asan iş deyildi. Lakin, Azərbaycan musiqiçilərinin "Şur" kompozisiyası ən parlaq, ən cazibədar çıxışlar sırasında yer aldı. Bunu münsiflər heyətinin üzvləri mətbuat konfransında da xüsusi vurğuladılar. Bəli, xanəndə Təyyar Bayramov "Unikal səs" mükafatına layiq görüldü!

Qaliblər sırasında Çin, Yaponiya, Polşa, Estoniya və Kosta-Rikanın ifaçı kollektivləri vardı.

Qeyd edək ki, musiqiçilərin çıxışları yalnız "festival saatları" ilə məhdudlaşmırdı. Əsas "yarışma" rəsmi konsertdən sonra başlayırdı: iştirakçıların yerləşdiyi "Əfrosiyob" mehmanxanası hər gecə səhərə qədər əsl deyişmə məkanına çevrilir, bizim ifaçılarımız isə burada əsl virtuozluq nümunəsi göstərirdilər. Bundan başqa, Səmərqəndin müxtəlif yerlərində qurulmuş açıq səhnələrdə məhz bizim ifaçıların səsləndirdiyi Azərbaycan təranələri tamaşaçılar tərəfindən ən çox sevilən musiqi statusu qazanırdı. Konsert təşkilatçılarının bizim ifaçıların çıxışlarını ən axıra saxlamaq qərarı isə – bir tərəfdən tamaşaçıları intizarda saxlamaq, digər tərəfdən, tədbirə möhtəşəm sonluq vermək istəyindən qaynaqlanırdı.

**Festival çərçivəsində, ənənəvi olaraq, Beynəlxalq Elmi Konfrans da yer aldı. Gündəmdə aktual olduğu qədər də mürəkkəb bir mövzu – "Şərq xalqlarının musiqi mədəniyyətlərinin müştərəkliyi" məsələsi idi. Məruzəçilər sırasında Yaponiya, Çin, Misir, Koreya, İran, Almaniya, Norveç, Böyük Britaniya, Serbiya, Rusiya, Macarıstan, İsrail və bir çox digər ölkələrin nümayəndələri vardı.**

Elmi maraq və geniş müzakirəyə səbəb olması baxımından yapon alimi (eyni zamanda "Şərq Taronaları" festivalı münsiflər heyətinin sədri) prof. Suqenin "Teymurilər dövrünün ən sirli aləti - Şedirğuya yeni bir nəzər", Naser əl Taenin (Oman) "Ərəb dünyasının ənənəvi və müasir musiqisi kontekstində makam və taksim", Babak Xazrainin (İran) "Əbdülqadir Marağayi İran və Osmanlı musiqi mədəniyyətləri arasında əlaqə fenomeni kimi" məruzələrini xüsusi qeyd etmək istərdim. Bu sətirlərin müəllifinin "Şərq xalqlarının musiqi-poetik yaradıcılığında fələk mövzusu" adlı məruzəsi isə konfransın diqqətini az tədqiq olunan bir mövzu kimi də cəlb etdi. Konfransda qədim Şərq ənənəvi musiqisinin müştərəkliyini ortaya çıxaran mövzularla yanaşı, qloballaşan müasir dünyada Şərq-Qərb musiqi sintezinin doğurduğu bədii kəşfləri və hadisələri önə çıxaran məruzələr də az deyildi. Bu baxımdan, bir sıra müasir Azərbaycan bəstəkarlarının yaradıcılığı təcrübəsində müşahidə edilən total musiqi axtarışlarının bəzi istiqamətlərini önə çəkən Zümrüd Dadaşzadənin məruzəsini qeyd etmək lazımdır. Norveç alimi Devid Hebertin "Asiya musiqi ənənələrinin qorunması qlobal rəqəmsal əməkdaşlıq şəbəkəsi vasitəsilə", alman alimi Birqit Ellinhausun "Avropada Mərkəzi Asiya musiqisi haqda təsəvvürlər və qavranılma aspektləri" məruzələrində daha çox sosioloji, kulturoloji araşdırmalar yer almışdı. İsraildən gəlmiş Natalya Divinskayanın "Müasir İsrail və Mərkəzi Asiya respublikalarının musiqi mədəniyyətinin ortaq elementləri" adlı məruzəsində isə diqqətimizi bir məqam çəkdi. Müəllif İsraildə Novruz bayramının xüsusi təntənə – milli geyimlərdə və autentik musiqi alətlərilə keçirilməsi haqda məlumatında vurğuladı ki, bu ənənə Şərq ölkələrindən, ilk növbədə vaxtilə Azərbaycandan gəlmiş insanların böyük səyi və istəyi nəticəsində yaranmışdır. Məruzə zamanı göstərilən videogörüntülər isə yad ölkədə milli bayramımızın parlaq səhnələrini canlandırdı. Digər məruzələrdə nümayiş etdirilən oxşar nümunələr, xüsusilə müasir Avropa ölkələrində türk musiqi ənənələrinin geniş vüsət alması faktları da Şərqin Qərb təfəkkürünə intensiv təsirindən xəbər verirdi.

Konfransda görkəmli alimlərilə yanaşı, perspektivli gənc tədqiqatçılarına da yer vermiş ev sahibi Ozbəkistan da öz elmi potensialını geniş şəkildə və hərtərəfli ortaya qoymağa çalışmışdı. Konfrans çərçivəsində görkəmli özbək alimi, professor Otanazar Matyakubovun "Özbək klassik musiqisi" kitabının təqdimatı, özbək makomçularının ustad dərsləri, iştirakçıların qaldığı mehmanxanada özbək milli musiqi alətlərindən ibarət sərgi də təşkil olunmuşdu.

Səmərqənd festivalı, heç şübhəsiz, müasir dövrün rəngarəng musiqi festivalları tarixinə özünəməxsus yeri və böyük əhəmiyyəti olan möhtəşəm musiqi hadisəsi kimi düşəcək... ❖

Lalə Hüseynova



Simarə İmanova və "Buta" muğam qrupunun çıxışı